# Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin onlayn iclası keçirilib

Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin növbəti onlayn iclası keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclis Sədrinin müavini, İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fəzail İbrahimli gündəliyə birinci oxunuşda 3 məsələ daxil edildiyini söyləyib və həmin qanun layihələrinin parlamentə bir zərfdə təqdim olunduğunu diqqətə çatdırıb.

Qeyd edilib ki, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanuna təklif edilən dəyişikliklər rəqəmsal texnologiyanın inkişafı nəticəsində elektron xidmətlərdən istifadənin daha da genişləndirilməsi məqsədini daşıyır. Həmçinin "Elektron imza və elektron sənəd haqqında" qanuna uyğun olaraq müvafiq icra hakimiyyəti orqanının elektron sistemindən istifadə zamanı sənədlərin əldə edilməsinin asanlaşdırılmasını nəzərdə tutur. Bunlarla əlaqədar yeni layihədə qanunun 9-cu maddəsinə 9.2-3-cü və 9.2-4-cü maddələr əlavə olunur.

Komitə sədri vurğulayıb ki, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda bu dəyişikliklərin edilməsi "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanuna da müvafiq dəyişikliklər edilməsi zərurətini yaradır. Beləliklə, qanunvericiliyin uyğunlaşdırılması baxımından "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" qanuna 16.2-1, 16.2-2 və 24-3-cü maddələr əlavə olunur. Həmin maddələr təsis sənədləri ilə bağlı qeydiyyat və digər müraciətlərin (qrant müqavilələri, ianələr üzrə məlumatların təqdim edilməsi və s.) elektron qaydada aparılmasının mümkünlüyünü müəyyənləşdirir, habelə dövlət qeydiyyatının gücləndirilmiş elektron imzadan istifadə etməklə elektron məlumat sistemi vasitəsilə aparılmasını nəzərdə tutur.

Onlayn iclasda gündəlikdəki 3-cü məsələni şərh edən vitse-spiker Fəzail İbrahimli bildirib ki, "Qrant haqqında" qanunda edilən dəyişiklik də uyğunlaşdırma xarakteri daşıyır, QHT-lərin bağladığı qrant müqavilələrinin qeydə alınmasının elektron məlumat sistemi vasitəsilə həyata keçirilməsi üçün hüquqi əsaslar yaradır.

Sonra onlayn iclasda müzakirələr aparılıb. Komitə üzvləri Azər Badamov, Sevinc Fətəliyeva, Malik Həsənov, Anar İsgəndərov, Ceyhun Məmmədov və Cavanşir Paşazadə rəy və təkliflərini bildiriblər.

Yekunda gündəlikdəki qanun layihələri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

---

Azərbaycan.- 2020.-25 iyun.- S.7.